Ədəbiyyat qəzeti

12 28 may 2021-ci il

# QURBAN BAYRAMOV - 75



Hörmətli Qurban müəllim!

Sizi, tanınmış ədəbiyyatşünas alim və tənqidçini 75 illiyiniz münasibətilə təbrik edirik. Siz 1946-cı il may ayının 30-da anadan olmuş, orta, ali və aspirantura təhsili almısınız. Azərbaycan Yazıçılar Birliyinin (1984), Respublika Qarabağ Ağsaqqallar Şurasının (2001), Azərbaycan Ziyalılar Hərəkatı Ali Şurasının üzvü (2003), filologiya üzrə fəlsəfə doktoru (1979), dosent (2018), Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisiniz. 1979-cu ildə "Səməd Vurğun poeziyasında lirik qəhrəman problemi" mövzusunda dissertasiya müdafiə etmisiniz.

1970-ci ildən - 50 ildən çoxdur ki, tənqid və ədəbiyyatşünaslıqla müntəzəm məşğul olursunuz. Dövri və elmi mətbuatda 500-dən çox məqalə dərc etdirmiş, "Vurğun poeziyası", "Lirik qəhrəman və zaman (S.Vurğun poeziyasında)", "Tarixilik və müasirlik", "Yaşar Qarayev: milli yaddaş təlimi - azərbaycançılıq", "Poeziyanın sirri: çaylar geriyə axmır, dənizə can atır...", "Əli İldırımoğlunun yaradıcılıq yolu: Müasir Azərbaycan ədəbiyyatında avtobioqrafik roman janrının təkamülü", "Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı ədəbi tənqiddə" və s. bu qəbildən elmi-nəzəri kitablarınız, "Yaralı Vətənin yaralı övladları" bədii-publisistik əsəriniz elmi və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb.

Sizin "Müasir Azərbaycan poeziyasında üslubi meyillər", "Azərbaycan ədəbiyyatında tarixilik və müasirlik", "M.Ə.Sabir ənənələri və Azərbaycan ədəbiyyatı", "Səməd Vurğun dünən, bu gün və sabah", "M.H.Şəhriyar poetik üslubu", "Qarabağ ədəbi mühiti - uzaq keçmişdən bu günümüzə qədər", "Müstəqillik dövrü Azərbaycan poeziyasında tarixilik və müasirlik" kimi maraqlı, sanballı tədqiqat işləriniz də diqqətəlayiqdir... Bir sıra əsərləriniz İranda, Türkiyədə, İraqda, Rusiyada, Macarıstanda, Litvada, Krımda, Kərkükdə, Qazaxıstanda dərc olunub...

Müasir dövr Azərbaycan ədəbiyyatının demək olar ki, bütün nümayəndələri haqqında məqalə yazmış, fikir söyləmiş, elmi və bədii kitabların redaktoru olmusunuz, onların bir çoxuna ön söz yazmısınız. Xüsusən, uzun illər "Müstəqillik dövrü Azərbaycan poeziyası"na həsr etdiyiniz ədəbi icmallar yeni elmi-nəzəri konsepsiyası ilə böyük maraq doğurub. Çapa hazırlanan yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin müəlliflərindənsiniz. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun, Azərbaycan Yazıçılar Birliyinin və bütövlükdə respublikanın ictimai-elmi-ədəbi həyatında həmişə yaxından iştirak edirsiniz.

Uzun illər "Gənclik" nəşriyyatında rəsmi rəyçi, Azərbaycan Dövlət Televiziyasında "Ədəbiyyatşünaslıq və zaman", "Ədəbiyyat" (1982-1992) elmi-kütləvi, tədris televiziya verilişlərinin müəllif-aparıcısı kimi səmərəli fəaliyyət göstərmiş, müxtəlif vaxtlarda respublika və beynəlxalq səviyyəli elmi-nəzəri konfranslarda, müşavirələrdə, Yazıçılar Birliyinin tədbirlərində müntəzəm etdiyiniz dəyərli elmi-ədəbi məruzələrinizlə, çıxışlarınızla həmişə rəğbətlə qarşılanmısınız.

Ciddi tədqiqatlarla məşğul olmanız, müasir ədəbi prosesi diqqətlə izləməniz, ardıcıl elmi-ədəbi fəaliyyətiniz Sizi ciddi bir alim, ədəbiyyatşünas və obyektiv tənqidçi kimi geniş tanıtdırmış, ədəbi nüfuz qazanmısınız. Bu gün də gənclik ehtirası ilə fəaliyyətinizi davam etdirirsiniz... Həyat və fəaliyyətiniz barəsində yazılmış "Qurban Bayramov - şəxsiyyətin böyüklüyü, böyüklüyün şəxsiyyəti" (B., MBM, 2011, 480 səh.) kitabı da haqqınızda dürüst təsəvvür yaradır...

Müxtəlif vaxtlarda Ədəbiyyat İnstitutu Elmi Şurasının, Müdafiə Şurasının, Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvü, Azərbaycan yazıçılarının VII qurultayından sonuncu qurultayına qədər nümayəndəsi olmuş, AMEA-nın, Azərbaycan Respublikası Həmkarlar Konfederasiyasının fəxri fərmanlarına, "Tanınmış Vurğunşünas alim", "Fədakar alim", "Elm fədaisi". "Vintsas" mükafatı" fəxri diplomlarına, "Səməd Vurğun mükafatı"na, "Avropa Nəşr Mətbu Evi"nin "Qızıl medal"ına layiq görülmüsünüz, Respublika Əmək Veteranısınız...

Hörmətli qələm dostumuz. Sizi bir daha 75 illiyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*